


“Rüstəm İbrahimbəyovun Milli Şuranın fəxri sədrliyi ilə bağlı müzakirələrin onun əleyhinə aparılan kampaniya kimi dəyərləndirməsi ilə razı deyiləm. Lakin bütövlükdə hesab edirəm ki, bu məsələlərə kifayət qədər aydın yanaşa bilib və məsələnin mahiyyətini qəbul edib”.

Bunu AzNews.az-a açıqlamasında Müsavat Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı deyib. O bildirib ki, R. İbrahimbəyov bütün bunları nəzərə alaraq, Milli Şuranın fəxri sədrliyindən imtina edib:

“Rüstəm İbrahimbəyovun həmin qərarına pozitiv yanaşıram və müsbət addım kimi dəyərləndirirəm. Bəyanatında Müsavat Partiyasının adını çəkməsində isə bir problem yoxdur.

Biz onun Rusiya vətəndaşı olduğunu, istər-istəməz bu dövlətin qarşısında müəyyən öhdəliklərinin mövcudluğunu, onun məşğul olduğu yaradıcılıq sahəsinin Rusiyaya aid olmasını, Rusiyanın da Azərbaycana dost olmayan bir ölkə olduğunu nəzərə alaraq, belə bir fikir

bildirmişdik ki, Rüstəm İbrahimbəyovun Milli Şuranı və Azərbaycan müxalifətini təmsil etməsi ölkəmiz və demokratik qüvvələr üçün problem yarada bilər.

Məhz bu amili əsas götürərək, Rüstəm İbrahimbəyovun nə sədr, nə həmsədr, nə də fəxri sədr olmasını məqsədəuyğun hesab etməmişdik. Rüstəm İbrahimbəyovun bizim bu fikirlərimizi də əsas götürərək, Milli Şuranın fəxri sədrliyindən istefa verməsini müsbət hadisə kimi dəyərləndirirəm”. Müsavat funksioneri R. İbrahimbəyovun Milli Şuranın üzvü kimi fəaliyyətində heç bir narahatlığın olmadığını da qeyd edib: “Düşünmürəm ki, Rüstəm bəyin istefası Müsavat Partiyasının apardığı danışıqlarla bağlıdır.

Bu müzakirələri bundan sonra da davam etdirəcəyik. Azərbaycanın demokratik qüvvələrinin daha səmərəli əməkdaşlığı və müttəfiqliyi şəraitində fəaliyyətimizi davam etdirməyə çalışacağıq. Hər halda Milli Şuranın son toplantısından sonra apardığımız siyasət bir qədər aydınlaşıb”.